**UOT 792.01 + 008**
**ORCID: 0009-0009-7528-5382**
**DOI: 10.52094/RZJV5034**

**Aydın Talıbzadə Ağa Yunus oğlu**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor**
aydin.talibzada@admiu.edu.az

# ŞƏHƏR VƏ MEQAPOLİSDƏ TEATR NƏDİR?

**Xülasə:** Məqalənin müəllifinə görə, teatr mətndir: mətn içində mətndir. Bir tərəfdən, teatr şəhər-mətn kontekstində “oxunur”, mətn içində mətn olur. Digər tərəfdən isə teatrın özü tam müstəqil mətndir, şəhərin dünyəviləşmək, dünyaya qatılmaq tendensiyasının gerçəkliyidir. Teatr da şəhər kimi qoruqdur: burada azadlıq, ruhsallıq, mənəviyyat sığortalanır. Teatr insana bütün situasiyalarda insaniyyəti öyrədir, başqalarına qarşı həssas olmağı öyrədir, şəxsiyyətini itirməyib mənciIlikdən qurtulmağı öyrədir. Şəhər makroteatrdır, teatr – mikroşəhər. Avropa şəhərlərində teatr zamana qarşı üsyandır, tanrının ədalətsizliyinə qarşı üsyandır. Tamaşaçı kilsəyə tanrı ilə barışmağa gəlirsə, teatra tanrıya etiraz etmək üçün gedir. Şəhərin fakturasının özündə belə üsyan ideyası şifrələnib: insan təbiətə üsyan eləyib, etiraz eləyib şəhərlərə sığınır. Şəhər insanın təbiətə üsyanıdır. Avropa teatr modeli tanrıya üsyan modelinin gerçəkliyidir: burada dramaturq və rejissor allahlığı boyunlarına götürüb yeni dünya qururlar. Hindistanda, Çində, Yaponiyada, İndoneziyada, Koreyada ənənəvi teatr formaları çərçivəsində gerçəkləşən oyunlar isə həmişə ayindir, dini ritualdır və bu ayinlər, rituallar məbəddə icra olunur. Orada teatr binası özünün hər bir təzahür formasında məbəd variantıdır, məbədin inversiyasıdır. Teatr şəhəri imitasiya eləyir. Bu baxımdan şəhərin mədəni məkanı yetərincə teatral məkandır. Binalara, idarələrə, meydanlara, parklara, küçələrə görə insanın danışıq və davranış tərzi də dəyişir: daha doğrusu, insan özünü məkana uyğun aparmağa başlayır ki, bu da birmənalı şəkildə teatr effektidir.

**Açar sözlər:** Teatr, şəhər və kənd, meqapolis, robot, mikroşəhər, makroteatr.

***Şəhərsizləşən dünya teatrdan məhrum olur.***
***Teatrın yoxa çıxması şəhərin ölümünün əlamətidir.***
***Şəhərin psixolojisi, ruhu var.***

***Teatr şəhər içrə kollektiv özünü ifadənin zirvəsidir: üsyan, inqilab alternatividir; fərd öz yaşantılarını, düşüncələrini, problemlərini şəhər əhlilə bölüşür.***

***Bu, teatrın mövcudluq qanunu, varlıq gücü olub həmişə.***

***Teatr şəhərin ruhunu yansıdır.***

***Meqapolisdə isə nə ruh var, nə psixoloji: hətta meqapolisdə yaşayanın özü meqapolisi tanımır. Şəhərli isə öz şəhərində hər yeri tanıyır. Meqapolis qlobal yataqxanadır: orada yaşamırlar, sadəcə, gün keçirib qalırlar.***

Qabaqalar Bakıda insanlar bir-birindən soruşardı ki, sən harada yaşayırsan. İndisə bununla maraqlananda sual verirlər ki, sən harada qalırsan. Fərq yerlə göy arasında.

***Şəhərli olmağın vacib atributu teatrdır. Teatr şəhər camaatının doğmalığını təsdiqləyən qeyri-rəsmi vəkalətnamədir.***

***Meqapolisin belə vəkalətnaməyə ehtiyacı yoxdur. Terror təhlükəsi altında hamı bir-birindən şübhəlidir. Şübhə isə doğmalıq hissini öldürür.***

Görək, bu, niyə belə alınır və burada kiminsə günahı varmı?

Ondan başlayaq ki, teatr da mətndir: daha doğrusu, mətn içində mətndir. Bir tərəfdən, ***TEATR şəhər-mətn kontekstində "oxunur",*** mətn içində mətn olur, şəhərin markörü olur, şəhər mədəniyyətinin simvolu, toplumun ruhsal-mənəvi ovqatının, onun azadlıq səviyyəsinin işarəsi olur.

Digər tərəfdən isə teatrın özü tam müstəqil mətndir, şəhərin dünyəviləşmək, dünyaya qatılmaq tendensiyasının gerçəkliyidir. Şəhər lokal mətndir, teatr – dünyəvi mətn. ***Teatr şəhərin dünyaya pəncərəsidir. Teatr dünyanın şəhərə vizasız və qeyri rəsmi gəlişidir.*** Əgər belədirsə, onda teatr siyasətdir, şəhərlər arası diplomatiyadır.

Teatr da şəhər kimi qoruqdur: burada azadlıq, ruhsallıq, mənəviyyat sığortalanır.

***Teatr insana bütün situasiyalarda insaniyyəti öyrədir, başqalarına qarşı həssas olmağı öyrədir, şəxsiyyətini itirməyib məncillikdən qurtulmağı öyrədir.***

Çoxları elə güman edə bilər ki, bu, müəllifin elmi düşüncələrinin ekstravaqantlığından irəli gələn söyləmlərdir, elmi bir süsləmədir. Əsla. Çünki dünya çapında məlum sorğuların böyük əksəriyyətində aşkarlanıb ki, respondentlər ***"şəhər kənddən nə ilə fərqlənir?"*** sualına ***"şəhərdə teatr var!!!"*** cümləsilə cavab veriblər. Deməli, şəhər insan qavrayışında hər şeydən öncə ***"teatr yeri",*** yəni, teatrın mövcud olduğu, məskunlaşdığı ***YER*** kimi konkretləşir.

Onda belə çıxır ki, teatr düşüncədə ***şəhər markörüdür,*** anlayışlar məkanında şəhəri ***"açan", şəhəri "çözən" koddur:*** elə bir koddur ki, yepyekə bir şəhəri öz içinə yığa bilir.

Teatr şəhərdəndir, şəhər – teatrdan.

***ŞƏHƏR MAKROTEATRDIR, TEATR – MİKROŞƏHƏR.***

Şəhər necədirsə, teatr da elədir. Teatr həmişə öz şəhərinə oxşayır.

Avropa şəhərlərində teatr zamana qarşı üsyandır, tanrının ədalətsizliyinə qarşı üsyandır. Qərb teatrı Allahın, taleyin, karmanın məhkəməyə gətirildiyi yerdir. ***Əgər sən kilsəyə tanrı ilə barışmağa gəlirsənsə, teatra tanrıya etiraz etmək üçün gedirsən.*** Teatr Allaha etiraz edib deyir ki, sən niyə insanı əbədi yox, ölümlü yaratmısan; niyə hər şey bu qədər fanidir, ötəridir; hanı sənin ədalətin ki, insanın arzularını gözündə qoyursan; hanı sənin ədalətin ki, insanları bu qədər incidirsən. Odur ki, insan tarixin hər bir dönəmində nə yaratmaq istəyirsə, onu əbədiyyət və bəşəri ədalət iddiası ilə yaradır; insanı daha rahat yaşatmaq üçün yaradır; onun əzablarını azaltmaq üçün yaradır, tanrının yanında və yadında əbədi ilişib qalmaq üçün yaradır. Bu iddianın özü üsyankar iddiadır. Hətta şəhərin fakturasının özündə belə üsyan ideyası şifrələnib: insan təbiətə üsyan eləyib, etiraz eləyib şəhərlərə sığınır. Şəhər insanın təbiətə üsyanıdır.

***Avropa teatr modeli tanrıya üsyan modelinin gerçəkliyidir: burada dramaturq və rejissor allahlığı boyunlarına götürüb yeni dünya qururlar, ölülərə can və söz verib onları dirildirlər, dindirirlər.***

Qərbdə teatr həmişə potensial ehramdır, sarkofaqdır. Ehram məbəd deyil, qəbiristanlıq variantıdır, nəhəng sarkofaqdır. Ehramı ona görə tikdirib özlərini mumiyalatdırırlar ki, zaman onları toz eləyib torpağa qarışdırmasın. ***Sarkofaq da, ehram da tanrı ilə yarışmaq, ona şərik olmaq, əbədi olmaq fikrindən, təmənnasından qaynaqlanır.***

Müsəlman Şərqində hətta bu sayaq düşünməyin özü yasaqdır. Qəbir itməlidir, yox olmalıdır, sarkofaq isə, ümumiyyətlə, nonsensdir. Bu kontekstdə ***"əbədi şəhər", "üsyankar şəhər"*** ideyası da müsəlman məmləkətlərində fiksiyadır, qəbul edilməzdir. Odur ki, islam ölkələrində XIX əsrin sonlarına XX yüzilin ön sənələrinə kimi teatr binası gözə dəymir. Bu da dolayısı yolla onu təsdiqləyir ki, teatrda Allaha qarşı üsyan ideyası şifrələnib və bu ideya latent şəkildə hər zaman mövcud olub. Təəccüblü deyil ki, müsəlman şəhərlərində teatr Allaha küfr formalarından biri kimi çözülür.

Hindistanda, Çində, Yaponiyada, Hindoneziyada, Koreyada ənənəvi teatr formaları çərçivəsində gerçəkləşən oyunlar isə həmişə ayindir, dini ritualdır və

bu ayinlər, rituallar məbəddə icra olunur. Orada ***teatr binası özünün hər bir təzahür formasında məbəd variantıdır, məbədin inversiyasıdır. Ona görə də Şərqin ənənəvi teatr formalarında improviz nonsensdir; heç nə dəyişikliyə uğramır: peşəkarlıq, istedad və bacarıq normanı yerinə yetirməkdir, katalardan kənara çıxmamaqdır, duada qalmaqdır, duada yaşamaqdır. Teatr Şərqdə həmişə ibadətdir.***

Şəhər qala divarları ilə təbiətdən "pərdələnir", teatr cəmiyyətdən özünü pərdə ilə ayırır. ***Şəhər məkanın teatrallaşdırılmasından, teatra çevrilməsindən yaranır. Şəhər yaşayışın özü deyil, yaşayışın imitasiyasıdır, təbiətin teatrıdır, toplumun nəhəng qəfəsidir, toplumun qəfəs içrə mövcudluğudur.***

Teatr şəhəri imitasiya eləyir: yəni ***imitasiyanın imitasiyası*** olur, təqlidi təqlid prinsipinə köklənir, semiosferanın insan münasibərlərinə etkisini görükdürür. Y.M.Lotman yazırdı ki, ***"işarələr mətnləri, mətnlər mədəniyyəti, mədəniyyət semiosferanı əmələ gətirir"*** [Лотман, Ю.М., 1999, s. 135]. Şəhərin necəliyi bu semiosferanın necəliyinə bağlıdır. Nədən ki, məhz semiosfera insanın ünsiyyətini, onun davranış manerasını yönləndirir, hətta hərəkət plastikasına təsir göstərir.

Bu baxımdan şəhərin mədəni məkanı yetərincə teatral məkandır. Binalara, idarələrə, meydanlara, parklara, küçələrə görə insanın danışıq və davranış tərzi də dəyişir: daha doğrusu, insan özünü məkana uyğun aparmağa başlayır ki, bu da birmənalı şəkildə teatr effektidir.

Teatr aktyorların şəhəridir, şəhər də adi insanların teatrı.

***ŞƏHƏRDƏ TEATR HƏMİŞƏ TEATR İÇİNDƏ TEATRDIR.***

"Şəhər və teatr ilişkisi mədəni məkan yaratmaq niyyətinin təzahürüdür" [Бурлина, Е.Я., Бокурадзе, Д.С.]. Şəhərlə teatrı bir-birinə bənzədən əlamətlər çoxdur.

***Şəhər teatra üstünlük verir, meqapolis – şouya.***

Məsələ bu ki, şəhər həmişə özgələri bir yerə yığıb onları bir ünsiyyət çənbərinə gətirməyi planlayır. Şəhərdə üç əsas belə yer var: tapınaq, bazar və teatr. Orta çağlarda teatr hətta tapınağın içində idi, bazar da bunların lap yaxınlığında. Tapınaq, teatr, bazar şəhərdə ən aktiv ünsiyyət zonalarıdır.

Bu üç məkanın aşıladığı birgəlik duyğusu çox mühümdür və insanların buna ehtiyacı var. Əgər biz hamımız tapınağa yığışırıqsa, teatra gəliriksə, bazarda alış-veriş yapırıqsa, deməli, biz bir-birimizə o qədər də uzaq deyilik, eyni bir məişət məkanımız, eyni bir ruhsal məkanımız var və bir-birimizi anlaya

bilərik, eyni bir şəhərdə tolerantcasına yaşaya bilərik, dəyərlərimizlə paylaşa bilərik:

***"Yenə bu şəhərdə üz-üzə gəldik,***
***Neyləyək, ayrıca şəhərimiz yox" (Ramiz Rövşən).***

***Şəhərdə üz-üzə gəlmək mümkündür, meqapolisdə – yox.*** Şəhərdə bir gedirsən, bir qayıdırsan. Meqapolisdə gedirsən, daha qayıtmırsan: qayıtdığın zaman isə daha heç hara getməyi düşünmürsən: təsadüfi rastlaşmaq ehtimalı sıfır civarındadır. Şəhərdə hər yerə tamaşa eləyirsən, hər şeyi eşidirsən: meqapolisdə heç hara baxmırsan telefondan, planşetdən, bilgisayardan savayı; heç nə eşitmirsən, qulaqcıqla dinlədiyin musiqidən savayı. Meqapolis robotların insaniləşdiyi yox, insanların robotlaşdığı nəhəng şəhər məkanıdır. ***Robotlar üçünsə, ideal ipli kuklalar olsalar belə, teatr nonsensdir: onlar münasibətlər qurmurlar, ünsiyyətə ehtiyac duymurlar: onlar üçün nə məişət var, nə ruh.***

Şəhər həmişə romantikadır, qəfil görüşlərin poeziyasıdır, təzadların prozasıdır, ünsiyyət dramaturgiyasıdır, zibil yeşiklərinin absurdudur. Bu romantika və fəlsəfə hər şeydən öncə şəhərin teatrında görünür. Teatr şəhərdə mədəni məkan, emosional, intellektual, fon yaradır, müxtəlif insanları bir yerə toplayıb onları müzakirələrə dəvət edir, onlara ideya verir, ***"mən səndənəm, sən də məndən"*** konseptini dəstəkləyir, oyunun koqnitivliyini ön plana çəkir, özünütanımanı aktuallaşdırır.

***Şəhərdə teatr yaddaşdır;*** meqapolisdə teatr yaddaş dışına çıxır, daha doğrusu, yaddaşı fayllar kimi silir: meqapolis yaddaşdan qorxur, yaddaşı qurdalamaq istəmir; burada keçmişi xatırlamağa ehtiyac yoxdur. Keçmiş konfliktlər yumağıdır: həmişə çox çirkli və müəmmalıdır. ***Çünki yaddaşdan elə hey problemlər qopub gündəmə addımlayır.*** Meqapolis tarixin etkisini minimuma endirir. Keçmişdən bizə gəlib çatanın ən yaxşısı nədir? Sənət, ədəbiyyat, musiqi, memarlıq, mətbəx, dil və başqa heç nə: yerdə qalanı müharibə tarixidir, qan tarixidir, zülm tarixidir. Ənənə də, mentallıq da şübhəlidir: bir məqamda doğrudur, digər məqamda yanlış: bir dəfə işləyir, iki dəfə – yox. Qəhrəmanlıq da, xəyanət də hər zaman baxım bucağından asılı olur.

Meqapolis heç də iri şəhər demək deyil, bir meqa konstruksiyadır, ***ünsiyyətsizlik dodekafoniyasıdır,*** insanlar üçün dəmir və betondan düzəldilmiş azman arı pətəyidir. Burada heç kəs bir-birini tanımır və hamı bir-birindən ehtiyatlanır, şübhələnir. Şəhərdə ortaq mənəvi dəyərlər dominantdır, meqapolisdə – qanunlar. ***Meqapolis bədbəxt klounların yaşama arealıdır;***

***ənənələrin (tarixin, mentalitetin) sıfırlandığı zonadır.*** Burada şeirlər də qurtarır, teatr da. Meqapolis estrada göstəriləri üçün iri meydançaları məqbul sayır, teatrı isə bir ovuc intellektualların öhdəsinə buraxır; ötəri performansları, installyasiyaları seçir, teatrı festival "konveyirinə" oturdur.

***Meqapolisdə yaşamırlar, meqapolisdə işləyirlər: fəhlə kimi yox, robot-qul kimi işləyirlər.*** Meqapolisdə hamı azad kölədir. İşdən sonra böyük əksəriyyət oranı tərk edib qəsəbə tipli sakit bir guşədə öz ailəsiylə bir olmağa yollanır, meqapolisdən qaçır. Meqapolisin gecəsi rokçulara, tineycerlərə, baykerlərə qalır və azad qulların bayramı başlayır. Onlar üçün teatr astagəldir, ləngdir, darıxdırıcıdır, Nuh əyyamının yadigarıdır. ***Şəhər təşkil edilmiş mədəni məkandır və bu məkana düşünən adam lazımdır. Meqapolis isə şou məkanıdır və burada düşünmək yasaqdır.*** Düşündüyün andaca şou hava şarı kimi partlayır və meqapolisi partladır. Meqapolisə teatr yalnız əcnəbi turistləri cəlb etmək və mədəniyyətin tarixindən danışmaq üçün qədim muzey eksponatı kimi gərək ola bilər.

***Şəhər mifdir, meqapolis mifi udan əjdaha. Teatr öz-özünə yaşamır: teatrı dövrün mifolojisi yaşadır, şəhərin mifi yaşadır.*** Meqapolisdə mif (yunan versiyasında) başlanğıca – titanlar dönəminə qayıtmaq pozisyonuna gəlir: yəni ulduz müharibələri, Terminator, Hulk tipli superqəhrəmanlar və s. ***Meqapolis onları kütlə üçün oyuncaq-robot və ya kütlə üçün mexaniki əmzik qismində istehsal edir.*** Axı, kütlə həmişə uşaqdır və o, heç vaxt böyümür. Kütlə böyüsə kütlə dağılacaq: dağılacaq ona görə ki, fərdlərə parçalanacaq. Fərd düşünməyə başladımı, kütləyə qatılmır, kütlədən uzaqlaşır. Fərdin yaşaması üçün kölənin ölməsi gərək.

Bu da onu təsdiqləyir ki, kütlə ilə analitik təfəkkür, tənqidi təfəkkür bir araya sığmır. Kütlə düşünməyi sevmir: nəyisə anlamazsa, anlamağa heç çalışmaz; əvəzinə qızar, hirslənər, azğınlıq eləyər, qarşısına nə çıxsa uçurar, əzib məhv edər. Burada  artıq koqnitivlikdən söhbət gedə bilməz. Kütlə primitivliyə bayılır, emosional qıcığa reaksiya verir: düşünmək kütlə üçün vaxtı vecsizcəsinə korlamaq deməkdir.

Odur ki, meqapolis teatrdan imtina edir. Teatr "ağırdır", tamaşa başlayır, uzanır və heç cür qurtarmır. Düşünməkdən ötrü hövsələ lazımdır: başqasının sənə nə dediyini anlamaqdan ötrü qulaq asıb gözləmək lazımdır. Kütlə bunu xoşlamır: o, sürətin, dinamikanın, transformasiyaların, əlvanlığın, hipnozun, aramsız danışmağın, aramsız yeniləşməyin, aramsız rekord qırmağın, hər yerə özünü proyeksiya etməyin peşindədir. O, sənətdə effektli qəfil ixtiralardan, bir

anlıq dahilikdən, öz sevimli şou "kuklaları"nı tez-tez dəyişməkdən xoşhallanır, uzunçuluqdan diskomfort yaşayır.

***Çünki:***

***meqapolisdə söz ölür.***

***Çünki:***

***meqapolisdə sözlər etibarsızlaşır.***

***Çünki:***

***meqapolis səs-küy içində etinasız susqunluqdur.***

***Çünki:***

***meqapolisdə nə yazırsan yaz, nə deyirsən de, əgər kütlə marağına yaramırsa, mənasız və lazımsız olur.***

Səbəbi bəlli: bugün sözlər – danışıq – nitq adama hədsiz yorucu və yalançı görünür: onları demək də, dinləmək də xeyli vaxt aparır: görüntüdən görüntüyə isə çox ani keçirsən, bir göz qırpımında ***"uçan xalça"*** effektini yaşaya bilirsən, dünyanı görürsən.

Teatr qapıları müasirliyin üzünə laybalay açsa da, kütlə içinə getsə də, meqapolis onu qəbul eləmir. "Canlı sənət" olmaq üstünlüyü də daha işə yaramır. Ona görə ki, hamı sosial şəbəkələr kommunasında yaşayır və öz yaşantısını, ağrısını, problemini, sevincini, fotosunu, cikini-bikini bütün gün ərzində kimlərləsə aktiv şəkildə paylaşır. Bu canlılığı, bu dinamik ünsiyyəti teatr onun üçün yarada bilirmi? Əsla. Teatr yalvarır ki, lütfən, telefonları qapadın. Amma qapadan varmı? Hamının əli, barmağı, runu, ağlı və ürəyi mobil telefonundadır. Guya ki eşidilən zəng, gələn mesaj Allahdan gələcək və həməncə hər şeyi, həyatı, gerçəkliyi, insanları dəyişəcək. Seyrçinin həqiqi marağı bir parça telefonuna bağlı isə teatr tamaşası onun üçün nə qədər əhəmiyyətli olacaq?

Meqapolisdə teatr seyrçinin nə istədiyini heç cür kəsdirə bilmir. Çünki seyrçinin özü nə istədiyinin fərqində deyil: o, gerçəkliyin içiylə balıq çayda üzən kimi üzməyə, axına qoşulub axmağa üstünlük verir, sürəkli heç nəyə içdən tutulmur və idarə olunduğunu aksiom kimi qəbul edir, bununla barışır, qarışdırılmayınca heç nəyə qarışmır; ***demir ki, məni maraqlandır; deyir ki, mənim ağlımı al, məni elə şoka sal ki, telefonumu və sosial şəbəkələrdəki virtual dostlarımı unudum. Axı, müasir insana virtuallıq canlı teatrdan çox-çox yaxın və məhrəmdir.***

Maraqlanmaq ağlı itirməkdən daha çətindir. Ağlı itirəndə insan əyləncəyə, kefə, narkotiklərə aşırı uc olur: uc olur ki, ***cənnəti həmişə böyründə saxlasın.*** Yəni, hər şeyin əvvəlcədən məlum olduğu ölümlü dünyaya əyləncə

kimi yanaş, hər dəqiqəni əyləncəyə çevir! Aldan! Könlündən yaşamaq keçirsə, aldanışa inan! İnanmasan, intihar etməyə məhkumsan. Durmadan ye və arıqla! Arıqladın, təzədən ye! Kifirsən, səni gözəlləşdirərlər; qocasan, səni cavanlaşdırarlar: televizyonçular bütün dünya çapında çoxsaylı kanallardan sənin üstünə cumub sənə kömək edərlər! Təki aldanmağına davam et! Reklamla yaşa, reklamın tövsiyəsilə yaşa: bir də görəcəksən ki, düşünə bilmirsən. Reklam Konfutsinin öyüdünü yerinə yetirir: düşünmə, xoşbəxtliyə və rahatlığa çatacaqsan. Müasirliyin devizi budur! Həyatı son damlasına qədər süniləşdirmək, əyləncələrlə hər bir ağrını, problemi unutdurmaq, düşünmək macalını insandan oğurlamaq! Çünki sənin əyləncən bitən kimi sən əlüstü kiminsə probleminə çevrilirsən! Kiminsə probleminə çevriləndə, onu da öz əyləncəsindən ayırırsan və problemləri çoxaldırsan. İnsanları permanent əyləncədə, mahnı müsabiqələrində, iri stadion konsertlərində, teleproyektlərdə görən teatr anlaya bilmir ki, müasir insanın problemi nədir: problemi, ümumən, varmı, yoxmu? O, harada doğruçudur, harada – yalançı? Öz-özlüyündə müasir insan da anlaya bilmir ki, teatr nədir və onun mövcudluğunun məqsədi, məramı nədir, manifesti nədir?

***Teatr tarixən yalnız əyləncə olmaq istəməyib və indi onun bu situasiya ilə bacarmağa qüvvəsi, iqtidarı çatmır. Çünki onun seyrçiləri çoxdan ölüblər və teatr çoxdandır ki, toplumda teatr olmağın imitasyonu ilə məşğuldur. Əgər həyatın özü maneken həyatdırsa və ətrafda gördüyümüz hər şey aldanışdırsa, sünidirsə, şizofren virtual məkandırsa, teatr, axı, nə edə bilər?***

***Teatr postdramatik ola bilər yalnız müəyyən müddətə: nədən ki, çox tez tükənir.***

***Kino bir vaxtlar teatr seyrçilərindən bir xeylisini dartıb özüylə apardı, sonra televiziyon... İndisə hər performans, hər layihə, hər göstəri, hər sərgi, hər şou, hər installyasiya, hər stənd-ap, hər təqdimat, hər brifinq teatrdan bir cıqqılı qoparıb özündə yaşadır. Reklam, tik-tok, WatsApp modilliyinə, təfəkkürünə, ritminə öyrədilmiş müasir seyrçinin teatr tamaşasına dözməsi də problemlidir artıq. Teatr bu xüsusda olan-qalan tamaşaçısını da itirir və gündən-günə daha sürətlə köhnəlir. Qüssələnməyinə dəyərmi?***

***Teatr dəyişir, dəyişdikcə köhnəliyi daha çox bilinir, konfliktdən, hadisədən, təhlildən qaçır, postdramatik şamançılığa qayıdıb öz ictimai-sosial gücsüzlüyünü yenməyə çalışır, meqapolisə rəğmən yaşamağa, müəllifliyi seyrçilə bölüşməyə, tamaşaçı təsəvvürünü oyun məkanı kimi götürməyə çalışır...***

***Onda seyrçi seyrçi olmur, seyrçi kütlə olmur, yalnız bir otağa sığışa biləcək mürid-davamçı-pasiyent olur, meqapolisin varlıq konveyerindən qaçmış pasiyent olur...***

***Mürid-davamçı-pasiyent olmağı isə koronavirus yasaq eləyir və yekə mismarları aramla, bir-bir teatrın tabutuna çalır...***

***Teatrın tabutuna mismarlar çalınanda isə o, möcüzəli olmaq, hamıya oxşamamaq üçün özünün ritual, ayin, ibadət, təlqin, zikr, dua versiyasına qayıdır...***

## Ədəbiyyat siyahısı

1. Лотман Ю.М. Внутри мыслящих миров: Человек-текст-семиосфера-история. – М.: Язык русской кульуры, 1999. – 464 с.
2. Бурлина Е.Я., Бокурадзе Д.С. Театр в городе и город в театре: единое культурное пространство
http://cyberleninka.ru/article/n/teatr-v-gorode-i-gorod-v-teatre-edinoe-kulturnoe-prostranstvo

**Aydin Talibzade Agha Yunus oghlu**

## WHAT IS THEATRE LIKE IN A CITY AND METROPOLIS?

**Summary:** According to the author of the article, theatre is a text: a text within a text. On the one hand, theatre is “read” in the context of the city-text, becoming a text within a text. On the other hand, theatre itself is a completely independent text, a reality of the city's tendency toward secularization, toward integration into the world. Theatre, like the city, is a sanctuary: freedom, spirituality, and morality are ensured here. Theatre teaches people humanity in all situations, teaches them to be sensitive to others, teaches them to rid themselves of egoism without losing their identity. The city is a macrotheatre, theatre is a microcity. In European cities, theatre is a rebellion against time, a rebellion against God's injustice. If a spectator comes to church to reconcile with God, they go to the theatre to protest against God. The very structure of the city encodes the idea of such a rebellion: people rebel against nature, protest, and find refuge in cities. The city is man's rebellion against nature. The European theatrical model is a model of rebellion against God: here, the playwright and director assume the role of the deity and construct a new world. In India, China,

Japan, Indonesia, and Korea, plays unfolding within traditional theatrical forms are always rituals, and these rituals and ceremonies are performed in the temple. There, the theatre building is a version of the temple, an inversion of the temple in all its manifestations. The theatre imitates the city. From this perspective, the cultural space of the city is a theatrical space in its own right. The way people speak and behave also changes depending on the buildings, offices, squares, parks, and streets: more precisely, people begin to behave in accordance with the space, which undoubtedly has a theatrical effect.

**Key words:** theatre, city and village, metropolis, robot, microcity, macrotheatre.

**Айдын Талыбзаде Ага Юнус оглы**

## ЧТО ПРЕДСТАВЛЯЕТ СОБОЙ ТЕАТР В ГОРОДЕ И МЕГАПОЛИСЕ?

**Резюме:** По мнению автора статьи, театр – это текст: текст внутри текста. С одной стороны, театр «читается» в контексте города-текста, становясь текстом внутри текста. С другой стороны, сам театр представляет собой совершенно независимый текст, отражающий тенденцию города к секуляризации и интеграции в мир. Театр – это святилище, подобно городу: здесь гарантированы свобода, духовность и нравственность. Театр учит людей человечности во всех ситуациях, учит их быть чуткими к другим и учит избавляться от эго, не теряя при этом своей индивидуальности. Город – это макротеатр, театр – это микрогород. В европейских городах театр – это бунт против времени, бунт против несправедливости Бога. Если зритель приходит в церковь, чтобы примириться с Богом, то идет он в театр, чтобы протестовать против Бога. Сама структура города кодирует идею такого бунта: человек восстает против природы, протестует и находит убежище в городах. Город – это бунт человека против природы. Европейская театральная модель – это реальность модели бунта против Бога: здесь драматург и режиссер берут на себя роль божества и строят новый мир. В Индии, Китае, Японии, Индонезии и Корее пьесы, разворачивающиеся в рамках традиционных театральных форм, всегда являются ритуалами, и эти ритуалы и обряды исполняются в храме. Там здание театра во всех его проявлениях является вариантом храма, его инверсией. Театр имитирует город. В этом отношении культурное пространство города представляет собой довольно театральное пространство. Способ, которым человек говорит и ведет себя,

также меняется в зависимости от зданий, офисов, площадей, парков и улиц: точнее, человек начинает вести себя в соответствии с пространством, что, несомненно, является театральным эффектом.

**Ключевые слова:** театр, город и деревня, мегаполис, робот, микрогород, макротеатр.

**Məqalənin redaksiyaya daxilolma tarixi: 12.05.2026**
**Məqalənin çapa qəbul olunma tarixi: 20.05.2026**